**Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə”ni Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 4, maddə 258, № 12, maddə 1058; 2009, № 2, maddə 75, № 7, maddə 532, № 8, maddə 618, № 10, maddə 776; 2010, № 2, maddə 88, № 7, maddə 610, № 8, maddə 717, № 9, maddə 770; 2011, № 4, maddə 282, № 10, maddə 891; 2012, № 8, maddə 787; 2013, № 9, maddə 1046, № 11, maddələr 1321, 1339; 2014, № 2, maddə 122) ilə təsdiq edilmiş “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissədə “Bu Əsasnamə” sözlərindən sonra “Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsindən, ” sözləri əlavə edilsin.

2. 8.1.12-ci yarımbənddən “, Azərbaycan Respublikası hüdudlarından kənara çıxarılan” sözləri çıxarılsın.

3. 8.2.10-cu və 8.5.3-cü yarımbəndlərdə “ölkəyə daxil olması” sözləri “ölkədə olması” sözləri ilə əvəz edilsin.

4. 8.6.1.3-cü yarımbəndin əvvəlinə “üzərinə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan vəzifələr qoyulmaqla” sözləri əlavə edilsin və həmin yarımbənddən “və qanunvericiliklə müəyyən edilmiş qaydada üzərinə daimi yaşayış yerini dəyişməmək, yaxud müəyyən yerlərə getməmək barədə vəzifələr qoyulmuş” sözləri çıxarılsın.

5. Aşağıdakı məzmunda 8.18-ci bənd əlavə edilsin:

“8.18. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti:

müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşlar haqqında məlumatların “Sərhədkeçməyə məhdudiyyət siyahısı”na daxil edilməsi və müvafiq əsaslar aradan qalxdıqda, məlumatların aktiv statusunundəyişdirilməsi.”.

6. 10.2.1.2-ci yarımbənddə “müvəqqəti” sözündən sonra “və ya daimi” sözləri əlavə edilsin və həmin yarımbənddən “immiqrant və” sözləri çıxarılsın.

7. Aşağıdakı məzmunda 10.2.1.5-1-ci və 10.2.1.5-2-ci yarımbəndlər əlavə edilsin:

“10.2.1.5-1. ölkədə olması arzuolunmaz hesab edilən şəxslər haqqında;

10.2.1.5-2. barələrində Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılması haqqında qərar qəbul edilmiş, habelə Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılmış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında;”.

8. 10.2.2.5-ci yarımbənddən “, habelə Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılan” sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 11 sentyabr 2014-cü il
№ 282